**Mediasiya haqqında**
AZƏRBAYCAN RESPUBLIKASININ QANUNU
(Layihə[1])

Bu qanun mübahisələrin həllinin alternativ üsulu kimi mediasiyanın təşkili sahəsində ictimai münasibətləri nizama salır, onun prinsiplərini və həyata keçirilməsi qaydlarını, həmçinin mediatorların statusunu müəyyənləşdirir.

**I fəsil.**
**Ümumi müddəalar**

**Maddə 1. Mediasiyanın tətbiq dairəsi**

1.1. Mediasiya mülki, əmək və ailə hüquq münasibətlərindən yaranan mübahisələrin tənzimlənməsi məqsədilə tətbiq olunur.

1.2. Mediasiya proseduru bu maddənin birinci hissəsində göstərilən münasibətlərdən yaranan mübahisələrə o halda tətbiq olunmur ki, belə mübahisələr mediasiya prosedurunda iştirak etməyən üçüncü şəxslərin və məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin maraqlarına toxunur və ya toxuna bilər.

1.3. Mediasiya proseduru fiziki və hüquqi şəxslərin iştirakı ilə mülki, əmək və ailə hüquq münasibətlərindən yaranan və tərəflərdən birinin dövlət orqanı olduğu mübahisələrə tətbiq edilmir.

**Maddə 2. Qanunda istifadə olunan əsas anlayışlar**

2.0. Bu qanunda aşağıdakı əsas anlayışlardan istifadə olunur:

2.0.1. mediasiya – tərəflər arasında mübahisənin üçüncü şəxsin köməyi ilə qarşılıqlı razılıq əsasında həlli üsulu;

2.0.2. tərəflər – mübahisəni mediasiya prosesi vasitəsilə nizama salmaq istəyində olan, bu Qanunun 1.1-ci maddəsində nəzərdə tutulmuş münasibətlərin subyektləri;

2.0.3. mübahisənin tənzimlənməsi haqqında saziş – tərəflər arasında mübahisənin tənzimlənməsi məqsədilə keçirilən mediasiya nəticəsində tərəflərin əldə etdiyi yazılı saziş;

2.0.4. mediator – bu qanunun tələblərinə uyğun olaraq peşəkar əsasda mediasiya prosesinin aparılması üçün tərəflərin cəlb etdiyi müstəqil fiziki şəxs;

2.0.5. mediasiya haqqında müqavilə - tərəflərin mübahisənin həlli məqsədi ilə mediasiya başlayana qədər mediatorla (mediatorlarla) bağladığı yazılı saziş;

2.0.6. mediasiyanın iştirakçıları – mediator və mediasiyanın tərəfləri.

**Maddə 3. Mediasiyanın məqsədləri**

3.0. Mediasiyanın məqsədləri aşağıdakılardır:

3.0.1. mübahisənin həllinin tərəfləri qane edən variantının əldə edilməsi;

3.0.2. tərəflər arasında münaqişə səviyyəsinin azaldılması.

**Maddə 4. Mediasiyanın prinsipləri**

---

[1] Bu layihə "Kiçik Sahibkarlığa Dəstək Layihəsi" çərçivəsində hazırlanıb. Layihənin icraçıları: 1) Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu; 2) İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi; 3) İqtisadi Tədqiqatlar Mərkəzi; 4) Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzi; 5) Gələcəyə Körpü gənclər təşkilatı; 6) Xalça Dünyası Assosiasiyası. Layihə USAİD-nin maliyyələ dəstəyi ilə həyata keçirilir.

4.0. Mediasiya aşağıdakı prinsiplər əsasında aparılır:
4.0.1. könüllülük;
4.0.2. mediasiya tərəflərinin hüquq bərabərliyi və əməkdaşlığı;
4.0.3. mediatorların müstəqilliyi və qərəzsizliyi;
4.0.4. mediasiya prosesinə müdaxilənin yolverilməzliyi;
4.0.5. məxfilik.

**Maddə 5. Könüllülük**
5.1. Mediasiya prosesində iştirak tərəflərin mediasiya haqqında müqavilədə ifadə olunmuş qarşılıqlı könüllü iradə ifadəsinə əsaslanır.
5.2. Mediasiyanın tərəfləri mediasiyanın istənilən mərhələsində ondan imtina etmək hüququna malikdirlər.
5.3. Mediasiyanın gedişində tərəflər öz mülahizələrinə əsasən maddi və prosessual hüquqlarından istifadə etmək, tələblərinin həcmini artırmaq və ya azaltmaq, mübahisədən imtina etmək hüquqlarına malikdirlər.
5.4. Tərəflər qarşılıqlı məqbul saziş variantlarının müzakirəsi üçün zəruri hesab etdikləri məsələləri seçməkdə azaddırlar.

**Maddə 6. Mediasiya tərəflərinin hüquq bərabərliyi və əməkdaşlığı**
6.1. Mediasiyanın tərəfləri mediatorun, mediasiya prosesinin, mediasiya zamanı öz mövqeyini müdafiə etmənin üsul və vasitələrinin seçilməsində, mübahisənin tənzimlənməsi haqqında sazişin şərtlərinin qiymətləndirilməsində bərabər hüquqlardan istifadə edirlər və bərabər vəzifələr daşıyırlar.
6.2. Mediasiyanın tərəfləri mediasiyanın məqsədləri naminə əməkdaşlıq üçün qarşılıqlı fəaliyyət göstərməlidirlər.

**Maddə 7. Mediatorların müstəqilliyi və qərəzsizliyi. Mediasiya proseduruna müdaxilənin yolverilməzliyi**
7.1. Mediasiyanın aparılması zamanı mediator tərəflərdən, dövlət orqanlarından, digər hüquqi və fiziki şəxslərdən asılı deyil. Mediator mediasiyanın, mükünlüyü bu Qanunla müəyyən edilən vasitə və metodlarını seçməkdə müstəqildir.
7.2. Mediator qərəzsiz olmalı, mediasiyanı hər iki tərəfin maraqlarına uyğun aparmalı və tərəflərin mediasiya prosesində bərabər iştirakını təmin etməlidir. Mediator, onun qərəzsizliyinə mane olan şərtlər olduqda mediasiyanı aparmaqdan imtina etməlidir.
7.3. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutlmuş hallar istisna olmaqla, mediasiyanın aparılması zamanı tərəflərin, dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin mediatorun fəaliyyətinə müdaxilə etmələrinə yol verilmir.

**Maddə 8. Məxfilik**
8.1. Mediasiya iştirakçılarının onlara mediasiyanın gedişində məlum olan məlumatı, həmin məlumatı verən mediasiya tərəfinin yazılı razılığı olmadan açıqlamaq hüququ yoxdur.
8.2. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutlmuş hallar istisna olmaqla, mediator mediasiyanın gedişində ona məlum olan hallar barədə şahid qismində dindirilə bilməz.

8.3. Mediasiya iştirakçıları tərəfindən onlara mediasiyanın gedişində məlum olan informasiyanı, həmin informasiyanı verən tərəfinin yazılı razılığı olmadan açıqlanması Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 9. Mediasiya tərəflərinin hüquq və vəzifələri**

9.1. Mediasiya tərəflərinin aşağıdakı hüquqları var:

9.1.1. mediasiyaya razılıq vermək və mediasiyanın istənilən anında onda iştirakdan imtina etmək;

9.1.2. mediatoru könüllü seçmək;

9.1.3. mediatordan imtina etmək;

9.1.4. mediasiyanın aparılmasında şəxsən və ya etibarnamə ilə verilmiş səlahiyyət əsasında nümayəndələri vasitəsilə iştirak etmək;

9.1.5. mediasiya prosesi və onun ehtimal olunan nəticələri barədə məlumat almaq;

9.1.6. münaqişənin tənzimlənməsi haqqında sazişi imzalamaq.

9.2. Mediasiyanın tərəfləri mübahisənin tənzimlənməsi haqqında sazişi bu sazişdə nəzərdə tutulmuş qaydada və müddətdə icra etməlidirlər.

9.3. Mediasiyanın tərəfləri Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquq və vəzifələrə də malikdirlər.

## II fəsil
## Mediatorların statusu. Mediatorlar siyahısı

**Maddə10. Mediatorlara aid tələblər**

10.1. Mediatorların reyestrinə daxil edilən və mediator funksiyasını yerinə yetirməyə razılıq verən, mediasiya tərəflərinin qarşılıqlı razılığı ilə seçilən, işdə marağı olmayan, qərəzsiz, müstəqil fiziki şəxs mediator ola bilər.

10.2. Mediator fəaliyyətini yaşı 25-dən aşağı olmayan, ali təhsilli, mediatorların hazırlıq proqramı üzrə təlim keçdiyini təsdiqləyən sertifikata malik və peşəkar mediatorların reyestrinə daxil edilmiş şəxslər həyata keçirə bilərlər.

10.5. Mediatorun fəaliyyəti sahibkarlıq fəaliyyəti hesab olunmur.

10.6. Mediator fəaliyyətini həyata keçirən şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan istənilən digər fəaliyyətlə məşğul ola bilərlər.

10.7. Aşağıdakı şəxslər mediator ola bilməzlər:

10.7.1. dövlət funksiyalarını yerinə yetirən şəxslər;

9.7.2. məhkəmə tərəfindən fəaliyyət qabiliyyətsiz və məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş şəxslər;

10.7.3. ödənilməmiş və ya götürülməmiş məhkumluğu olan şəxslər.

10.8. Mediasiya tərəflərinin razılığı ilə mediatorlarla bağlı əlavə tələblər müəyyənləşdirilə bilər.

**Maddə 11. Mediatorun hüquq və vəzifələri**

11.1. Mediatorun hüquqları:

11.1.1. tərəflər arasında razılaşma yolu ilə müəyyənləşdirilmiş qonorar almaq və mediasiyanın həyata keçirilməsi ilə bağlı çəkdiyi xərcləri tələb etmək;

11.1.2. mediasiyanın gedişində bütün tərəflərlə həm eyni zamanda, həm də hər bir tərəflə ayrı-ayrılıqda görüşlər keçirmək, onlara mübahisənin həlli üzrə şifahi və yazılı tövsiyələr vermək;
11.1.3. məxfilik prinsipini gözləməklə ictimaiyyəti öz fəaliyyəti haqqında məlumatlandırmaq.
11.2. Mediatorun vəzifələri:
11.2.1. mediasiya prinsiplərinə riayət olunmasını təmin etmək;
11.2.1. mediasiyanın aparıldlğı zaman yalnız mediasiya tərəflərinin razılığı ilə hərəkət etmək;
11.2.2. mediasiya başlanana qədər tərəflərə mediasiyanın məqsədlərini, onların hüquq və vəzifələrini izah etmək;
11.2.3. mediasiya proseduru çərçivəsində tərəflərin ona verdiyi sənədləri qaytarmaq;
11.2.4. peşə etikası qaydalarına əməl etmək.
11.4. Mediator Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquq və vəzifələrə də malikdir.

**Maddə 12. Mediatora etiraz**
12.1. Mediasiya prosesi zamanı tərəflər qarşılıqlı razılıq əsasında başqa mediatoru seçmək hüququna malikdirlər. Məhkəmə icraatının gedişində mediasiyanın aparılması zamanı tərəflər bu barədə məhkəməni xəbərdar etməlidirlər.
12.2. Mediatora öz funksiyalarını mediasiyanın prinsiplərinə uyğun olaraq həyata keçirməyə mane olan şərtlərin yarandığı hallarda mediator dərhal özü-özünə etiraz etməlidir.
12.3. Mediator mediasiya prosesinin davam etdirilməsinin mübahisənin həllinə gətirməyəcəyi qənaətinə gələrsə, mediasiyanı aparmaqdan imtina edə və ya tərəflərin yazılı razılığı ilə mediasiyanı dayandıra bilər.

**Maddə 13. Mediatorların hazırlığı və yenidən hazırlığı**
13.1. Mediatorların hazırlığı (ilkin hazırlıq) və yenidən hazırlığı ali təhsil müəssisələri və bu sahədə ixtisaslaşmış təşkilatlar tərəfindən aparılır.

**14. Mediatorların attestasiyası**
14.1. İlkin hazırlıq kurslarını bitirmiş şəxslər attestasiyadan keçmək üçün müraciət edə bilərlər.
14.2. Mediatorların attestasiyası Mediasiya üzrə Şura tərəfindən onun təsdiq etdiyi Əsasnaməyə uyğun həyata keçirilir.
14.3. Mediatorun statusu peşəkar mediator fəaliyyətini həyata keçirməyə hüquq verən sertifikatla təsdiq olunur.

**15. Peşəkar mediator fəaliyyətinin təşkili qaydası**
15.1. Attestasiyadan keçmiş mediator öz fəaliyyətini fərdi mediator bürosu və ya birləşmiş mediatorlar bürosu vasitəsilə həyata keçirə bilər.
15.2. Fərdi mediator bürosunda peşə fəaliyyətini attestasiyada keçmiş bir mediator (büronun təsisçisi) həyata keçirir.
15.3. Birləşmiş mediatorlar bürosu attestasiyadan keçmiş iki və daha çox mediator (büronun təsisçiləri) tərəfindən yaradılır.
15.4.Fərdi mediator bürosu və birləşmiş mediatorlar bürosu mediasiya üzrə Şurada həmin Şura tərəfindən təsdiq olunan Əsasnaməyə uyğun qeydiyyata alınırlar. Qeydiyyat barədə ərizədə büronun yerləşdiyi yer haqqında məlumatlar göstərilməlidir.
15.5. Mediatorlar bürosunun qeydiyyatı ərizənin verildiyi vaxtdan 15 iş günü ərzində həyata keçirilir.

15.6. Mediator büroları tərcüməçiləri, hüquqşünasları, digər ixtisaslaşmış və xidmətçi heyəti işə qəbul edə və ya onlarla mülki-hüquqi müqavilələr bağlaya bilərlər.

**16. Mediatorların reyestri**

16.1. Attestasiyadan keçmiş mediatorlar mediasiya üzrə Şura tərəfindən tərtib olunan və yenilənən mediatorlar reyestrinə daxil edilirlər.
16.2. Mediatorlar reyestrində aşağıdakı məlumatlar göstərilir:
16.2.1. attestasiyadan keçmiş mediatorun adı və soyadı;
16.2.2. mediatorun ünvanı;
16.2.3. mediatorun ixtisaslaşdığı mediasiya sahəsi;
16.2.4. mediator statusunun dayandırılması haqqında məlumatlar;
16.2.5. digər zəruri məlumatlar.
16.3. Müvafiq icra hakimiyyəti orqanı hər il dekabrın 25-dən gec olmayaraq mediatorların siyahısını dərc edir.

**17. Mediatorların intizam məsuliyyəti**

17.1. Mediator aşağıdakılara görə intizam məsuliyyəti daşıyır:
17.1.1. məxfiliyə və qərəzsizliyə riayət etməmə;
17.1.2. mediasiya predmeti olan mübahisə üzrə məhkəmə prosesində tərəflərdən birini və ya hər ikisini təmsil etmə;
17.1.3. tərəflərin təqdim etdiyi sənədlərin əslini qaytarmaqdan imtina etmə;
17.1.4. özünün qanunla nəzərdə tutulan öhdəliklərini təkrar pozma.
17.2. Mediatorlara qarşı aşağıdakı intizam tədbirləri tətbiq edilə bilər:
17.2.1. xəbərdarlıq;
17.2.2. töhmət;
17.2.3. 1 aydan 6 ayadək müddətə mediator fəaliyyətinin həyata keçirilməsini dayandırma;
17.2.4. mediator fəaliyyəti üzrə səlahiyyətlərin geri çağırılması.
17.3. İntizam tənbehi mediasiya üzrə Şuranın təklifi ilə müvafiq icra hakimiyyəti orqanı rəhbərinin əmri ilə verilir.
17.4. İntizam məsuliyyəti mediatoru öz peşə öhdəliklərini pozma nəticəsində vurduğu zərərə görə mülki məsuliyyətdən azad etmir.

**18. Mediator statusunun dayandırılması və xitamı**

18.1. Mediatorun statusu aşağıdakı hallarda dayandırılır:
18.1.1. öz xahişi ilə;
18.1.2. mediator fəaliyyətinin həyata keçirilməsinin dayandırılması növündə intizam tənbehi verildikdə.
18.2. Mediatorun statusuna aşağıdakı hallarda xitma verilir:
18.2.1. mediator fəaliyyətindən imtina barədə yazılı ərizə verdikdə;
18.2.2. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;
18.2.3. vəfat etdikdə;
18.2.4. məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;
18.2.5. barəsində çıxarılmış ittiham hökmü qanuni qüvvəyə mindikdə;
18.2.6. mediator fəaliyyəti üzrə səlahiyyətlərin geri çağırılması növündə intizam tənbehi verildikdə.

18.3. Mediasiya üzrə Şuranın təklifi ilə müvafiq icra hakimiyyəti orqanının rəhbəri 15 iş günü ərzində öz əmri ilə mediatorun statusunu dayandırır və ya ona xitam verir. Müvafiq icra hakimiyyəti orqanı rəhbərinin əmrindən məhkəməyə şikayət verilə bilər.
18.4. Mediatorun statusuna xitam verildikdə, mediator haqqında məlumatlar mediatorların reyestrindən çıxarılır.
18.5. Statusuna xitam verilmiş mediator attestasiyadan keçmək üçün yenidən müraciət edə bilməz.

## III fəsil
## Mediasiya üzrə Şuranın təşkili və fəaliyyət qaydası

**Maddə 19. Mediasiya üzrə Şura**
19.1. Mediatorların fəaliyyətinin təşkili və əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında mediasiya üzrə Şura yaradılır.
19.2. Mediasiya üzrə Şura müvafiq icra hakimiyyəti orqanının təşkil etdiyi müsabiqənin nəticələri əsasında təyin olunan 9 üzvdən ibarətdir. Mediasiya üzrə Şuranın üzvləri müvafiq icra hakimiyyəti orqanı rəhbərinin əmri ilə təyin olunurlar.
19.3. Mediasiya üzrə Şura üzvlərinin səlahiyyət müddəti 4 ildir. Heç kim iki dəfədən artıq Şura üzvü təyin oluna bilməz.
19.4. Mediasiya üzrə Şuraya Şura üzvləri tərəfindən 2 il müddətinə seçilən sədr rəhbərlik edir.
19.5. Şura üzvləri ödənişsiz əsaslarla fəaliyyət göstərirlər.
19.6. Mediasiya üzrə Şura haqqında Əsasnamə müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən təsdiq olunur.

**Maddə 20. Mediasiya üzrə Şurada qərarların qəbulu**
20.1. Mediasiya üzrə Şura qərarları üzvlərinin sadə səs çoxluğu ilə qəbul edir.
20.2. Qərarın qəbul edilməsi zamanı xüsusi rəy vermiş Şura üzvü həmin rəyi yazılı şəkildə bildirmək hüququna malikdir. Xüsusi rəy Şura iclasında sədrlik edənə təqdim edilir və qərara əlavə olunur.

**Maddə 21. Mediasiya üzrə Şuranın səlahiyyətləri**
21.0. Mediasiya üzrə Şura:
21.0.1. mediatorların attestasiyası haqqında Əsasnaməyə uyğun olaraq mediatorların attestasiyasını keçirir;
21.0.2. mediatorların hazırlığı və yenidən hazırlığı üzrə standartların və proqramların layihəsini hazırlayır;
21.0.3. mediasiya üzrə kursların təşkili və keçirilməsi qaydalarına, habelə mediatorların hazırlığı və yenidən hazırlığı üzrə standartlara əməl edilməsinə nəzarət edir;
21.0.4. mediatorların reyestrini tərtib edir və yeniləyir;
21.0.5. mediatorların fəaliyyəti ilə əlaqədar müraciətlərə baxır;
21.0.6. mediatorların intizam məsuliyyəti barədə qərar qəbul edir;
21.0.7. mediatorların peşə etikası normalarını təsdiq edir;
21.0.8. qanunvericiliklə və mediasiya üzrə Şura haqqında Əsasnamə ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

## IV fəsil
## Mediasiya prosesi

**Maddə 22. Mediasiyanın keçirilmə qaydası**
22.1. Tərəflərdən hər biri mediasiyanın tətbiqi barədə xahişlə müraciət edə bilər.
22.2. Mediasiya tərəflərin razılaşdırdıqları və bu Qanunun tələblərinə zidd olmayan qaydada keçirilir.
22.3. Tərəflərin razılığı ilə mediasiyanın keçirilməsinin mediasiya üzrə Şura tərəfindən təsdiq edilən qaydası (reqlamenti) tətbiq oluna bilər.

**Maddə 23. Mediasiyanın keçirilmə yeri və vaxtı**
23.1. Tərəflər mediasiyanın keçirilmə yeri barədə razılığa gələ bilərlər.
23.2. Mediator tərəflərin razılığı ilə mediasiyanın keçirilmə yeri və vaxtını müəyyənləşdirir.

**Maddə 24. Mediasiyanın keçirilməsinin şərtləri**
24.1. Mediasiya tərəflərin qarşılıqlı razılığı ilə və onlar arasında mediasiya haqqında müqavilə bağlandığı zaman keçirilir.
24.2. Mülki, əmək və ailə münasibətlərindən yaranan mübahisələrin tənzimlənməsi zamanı mediasiya həm məhkəməyə müraciət edilənə qədər, həm də məhkəmə araşdırması başlandıqdan sonra tətbiq edilə bilər.
24.3. Tərəflər razılaşdıqda mediasiya məhkəmənin təşəbbüsü ilə də tətbiq oluna bilər. Məhkəmə hər hansı formada tərəfləri mediasiyaya məcbur edə bilməz.
24.5. Mediasiya prosesi tərəflər arasında mediasiya haqqında müqavilə bağlandığı gündən başlayır.
24.6. Tərəflərdən biri mediasiyaya müraciət barədə yazılı formada təklif göndərdiyi vaxtdan 10 təqvim günü ərzində digər tərəfin mediasiyanın tətbiqinə razılığını almadıqda belə təklif rədd edilmiş sayılır.
24.7. Tərəflər mediasiyanın keçirilməsi üçün qarşılıqlı razılıq əsasında bir və ya bir neçə mediatoru seçirlər.
24.8. Tərəflərin bu barədə müvafiq xahişi olduqda mediasiya üzrə Şura mediatorun (mediatorların) namizədliyini tövsiyə edə bilər.
24.9. Mediasiyanın keçirilməsinin ümumi müddəti 60 təqvim günündən çox olmamalıdır. Mübahisənin mürəkkəbliyi nəzərə alınaraq bu müddət tərəflərin razılığı ilə 30 təqvim günündək uzadıla bilər. Mediasiyanın keçirilməsinin konkret müddəti isə ümumi müddət nəzərə alınmaqla mediasiya haqqında müqavilə ilə müəyyən olunur.
24.10. Mediasiya haqqında müqavilə məhkəmədə baxılan iş üzrə icraatın dayandırılması üçün əsasdır.
24.11. Məhkəmənin icraatında olan mübahisə üzrə mediasiyaya xitam verildikdə tərəflər bu barədə məhkəməyə 3 gündən gec olmayaraq aşağıdakıları təqdim etməlidirlər:
24.12.1. mübahisənin tənzimlənməsi haqqında saziş imzalandığı halda – həmin sazişi;
20.13.2. digər hallarda - əsaslarını göstərməklə mediasiyaya xitam verilməsi barədə yazılı xəbərdarlıq.

**Maddə 25. Mediasiya haqqında müqavilənin forması və məzmunu**

25.1. Tərəflərin mübahisənin mediasiya yolu ilə həlli haqqında qarşılıqlı razılığı olduqda mediasiya haqqında yazılı müqavilə tərtib olunur.
25.2. Mediasiya haqqında müqavilənin mühüm şərtləri aşağıdakılardır:
25.2.1. mediasiya haqqında müqavilənin tarixi, vaxtı və tərtib olunduğu yer;
25.2.2. mübahisə tərəflərinin adları, onların təmsilçilərinin adları və vəzifələri;
25.2.3. mübahisənin predmeti;
25.2.4. tərəflərin seçdiyi mediator (mediatorlar) haqqında məlumatlar;
25.2.5. mediasiyanın keçirilməsi ilə əlaqədar xərclərin şərtləri, qaydası və miqdarı, mediasiyanın peşəkar əsasda keçirildiyi hallarda mediatora ödəniləcək haqq;
25.2.6. mediasiyanın keçirilməsinin məxfiliyi haqqında tərəflərin öhdəlikləri və həmin öhdəliyə əməl etməmənin nəticələri;
25.2.7. mediatorun mediasiya tərəflərinə ziyan vuran hərəkətinə (hərəkətsizliyi) görə məsuliyyətinin əsasları və həcmi;
25.2.8. tərəflərin rekvizitləri;
25.2.9. mediasiyanın keçirilmə müddəti;
25.2.10. mediasiyanın keçirilmə qaydası.
25.3. Tərəflərin razılığı ilə mediasiya haqqında müqaviləyə münasibətdə əlavə tələblər müəyyənləşdirilə bilər.

**Maddə 26. Mediasiyanın keçirilməsi ilə bağlı xərclər**

26.1. Mediasiyanın keçirilməsi xərclərinə daxildir:
26.1.1. mediatorun qonorarı;
26.1.2. mediasiyanın keçirilməsi ilə əlaqədar mediatorun çəkdiyi xərclər, o cümlədən mübahisənin baxıldığı yerə getmək üçün yol, yaşayış və yemək xərcləri.
26.2. Mediatorlar mediasiyanı həm ödənişli, həm də ödənişsiz əsasda həyata keçirirlər.
26.3. Mediatora ödənilən haqqın miqdarı mediasiya prosesi başlanana qədər tərəflərlə mediator arasındakı razılıq əsasında müəyyən olunur.
26.4. Əgər tərəflərin razılaşmasında başqa qayda nəzərdə tutulmayıbsa, mediasiyanın keçirilməsi xərcləri tərəflər arasında bərabər bölüşdürülür.
26.5. Mediator onun qərəzsizliyinə mane olan şərtlər səbəbindən mediasiyanın keçirilməsindən imtina edərsə, tərəflərin ödədiyi məbləği qaytarmağa borcludur.

**Maddə 27. Mediasiyaya xitam verilməsi**

27.0. Mediasiyaya aşağıdakı hallarda xitam verilir:
27.0.1. mübahisənin həlli üzrə tərəflər saziş imzaladıqda – belə sazişin imzalandığı gündən;
27.0.2. mediator tərəfindən mübahisənin mediasiya yolu ilə həlli imkanını istisna edən hallar müəyyənləşdirildikdə;
27.0.3. tərəflər mübahisənin mediasiya yolu ilə həllinin mümkünsüzlüyü ilə əlaqədar mediasiyadan yazılı imtina etdikdə - tərəflərin yazılı imtinanı imzaladığı gündən;
27.0.4. tərəflərdən biri mediasiyanın davam etdirilməsindən yazılı imtina etdikdə - yazılı imtina göndərildiyi gündən;
27.0.5. mediasiyanın keçirilmə müddəti qurtardıqda - müddətin qurtardığı gündən;
27.0.6. tərəf olan fiziki şəxs öldükdə, hüquqi şəxs isə ləğv edildikdə.

**Maddə 28. Mübahisənin tənzimlənməsi haqqında saziş**

28.1. Mediasiyanın keçirilməsi zamanı mübahisənin tənzimlənməsi haqqında mediasiya tərəflərinin əldə etdiyi saziş yazılı formada bağlanır və tərəflərin imzası ilə təsdiq edilir.

28.2. Saziş mediasiya tərəfləri, mübahisənin predmeti, mediator (mediatorlar), həmçinin tərəflərin razılaşdırdıqları saziş şərtləri, onları yerinə yetirmə üsulu və müddətləri, şərtləri icra etməməyin və ya lazımi qaydada icra etməmməyin nəticələri barədə məlumatları özündə əks etdirməlidir.

28.3. Mübahisənin tənzimlənməsi haqqında sazişi tərəflər həmin sazişdə göstərilən qaydada və müddətlərdə könüllü icra etməlidirlər.

28.4. İşə məhkəmədə baxılmasınadək mübahisənin tənzimlənməsi haqqında bağlanan saziş tərəflərin mülki hüquq və vəzifələrinin yaranması, dəyişməsi və ya xitamına yönələn əqd hesab olunur. Belə sazişin icra edilməməsi və ya lazımi qaydada icra edilməməsi Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

28.5. İş üzrə məhkəmə prosesinin gedişində mediasiyanın keçirilməsi zamanı əldə edilmiş mübahisənin tənzimlənməsi haqqında saziş dərhal icraatında iş olan məhkəməyə göndərilir. Həmin saziş məhkəmə tərəfindən təsdiq edilir və təsdiq edildiyi vaxtdan qüvvəyə minir.

28.6. İşə məhkəmədə baxılmasınadək mübahisənin tənzimlənməsi haqqında saziş tərəflərin onu imzaladığı gün qüvvəyə minir.

## V fəsil
## Yekun müddəalar

**Maddə 29. Qanunun pozulmasına görə məsuliyyət**

29.1. Bu Qanunu pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 30. Qanunun qüvvəyə minməsi**

30.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Qeyd:*** Bu Qanunun 16.3., 17.3., 18.3., 19.2. və 19.6-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazairliyi həyata keçirir.